Azadlıq Radiosu

DÜNYA

# ABŞ Nümayəndələr Palatası Ukraynaya Dəstək Aktını qəbul edib

indicə




ABŞ Kapitolisinə aparan Pensilvaniya prospektində Ukrayna və ABŞ bayraqları

ABŞ Nümayəndələr Palatası Ukraynaya böyük yardım göstərilməsini və Rusiyaya qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini qəbul edib. Palatanın respublikaçı rəhbərliyinin səsverməyə çıxarmaq istəmədiyi qanun layihəsinə 18 respublikaçı da dəstək verib. Bu, konqresmenlərin administrasiyanın Ukrayna siyasətinə qınağı da sayılır.

"Ukraynaya Dəstək Aktı" 226 lehinə, 195 əleyhinə səslə qəbul edilib. Tərəfdarlar buna Konqresdə aylarla davam edən müqaviməti aşaraq nail olublar.

## "Nümayəndələr Palatası tarixin doğru tərəfində dayanır"

İyunun 4-də gecə qəbul edilmiş qanun layihəsinə əsasən, Ukraynaya 1 milyard dollardan çox yardım ayrılması, 8 milyard dollara qədər hərbi maliyyələşdirmə kreditlərinin verilməsi, bərpa işlərinə dəstək göstərilməsi, Baltik müttəfiqlərinə yardım, həmçinin Rusiyanın maliyyə, enerji, mədən və dövlət sektorlarına qarşı yeni sanksiyalar paketinin tətbiqi nəzərdə tutulur.

Layihə hələ respublikaçıların nəzarətində olan Senatda səsverməyə qoyulacaq. Senat rəhbərliyi prezident Donald Trampın Rusiyaya qarşı sanksiyalar məsələsindəki mövqeyinə uyğun davranır. Amma aktın tərəfdarları səsverməni mühüm siyasi və simvolik qələbə kimi qiymətləndirirlər.

**"Bu, azadlıq, demokratiya və hüququn aliliyini təşviq edən bir dünya ilə gücün hüququn yerini tutduğu bir dünya arasında seçim idi. Bugünkü ikipartiyalı səsvermə göstərir ki, Nümayəndələr Palatası tarixin doğru tərəfində dayanır"**, –palatanın Xarici Əlaqələr Komitəsinin aparıcı demokratı və qanun layihəsinin müəllifi **Qreqori Miks** səsvermədən sonra jurnalistlərə bildirib.

D.Tramp 2025-ci ilin yanvarında vəzifəyə qayıdandan sonra ABŞ-nin Ukraynaya hərbi yardımı kəskin azalıb. Hazırda münaqişənin başa çatdırılması yönündə diplomatik səylər səngiyib.

## Respublikaçıların Ukrayna siyasətində mövqeyi

AzadlıqRadiosunun Vaşinqtondakı baş müxbiri Aleks Raufoğlu yazır ki, qanun layihəsinin qəbulu respublikaçılar arasında administrasiyanın Ukrayna siyasəti ilə bağlı konsensusun zəiflədiyini göstərir.

Kaliforniyadan olan respublikaçı konqresmen **Kevin Kayli** mayda petisiyaya həlledici – 218-ci imzanı ataraq səsvermənin keçirilməsinə imkan yaradıb.

**"Biz açıq şəkildə göstərdik ki, ABŞ Ukrayna xalqının yanında qalacaq və onun özünümüdafiəsi üçün zəruri maddi dəstəyi təmin edəcək. Eyni zamanda aydın şəkildə nümayiş etdirdik ki, Rusiya qəddar və əsassız təcavüzü, eləcə də davam edən zorakılığına görə ağır bədəl ödəyəcək"**, –Kayli bildirib.

Konqresin Ukrayna üzrə işçi qrupunun həmsədri **Brayan Fitspatrik** səsverməni daha geniş kampaniyanın yalnız başlanğıcı adlandırıb. **"Kömək yoldadır. Bu, başlanğıcdır, son deyil"**, – o bildirib.

Bu səsvermədən bir gün əvvəl Nümayəndələr Palatasında bəzi respublikaçılar demokratlarla birlikdə Birləşmiş Ştatların Konqresinin icazəsi olmadan İrana qarşı hərbi əməliyyatlarda iştirakını məhdudlaşdıran qətnamə qəbul ediblər. Bu da bəzi konqresmenlərin xarici siyasət məsələlərində həm partiya rəhbərliyinə, həm də Ağ evə meydan oxumaq istədiyini göstərir.

## Kiyevin reaksiyası

Kiyev Nümayəndələr Palatasındakı ikipartiyalı dəstəyi alqışlayıb.

Ukraynanın ABŞ-dəki səfiri **Olqa Stefanişina** səsverməni "irəliyə doğru mühüm addım" adlandıraraq bunun Konqresin Ukraynanın müdafiəsinə davamlı dəstəyini əks etdirdiyini bildirib.

Amma o, qanunvericilik prosesinin hələ bitmədiyini vurğulayıb: **"Addım-addım irəliləyək. Bu gün Ukraynaya dəstəyin davamlılığını təmin edən 220-dən çox konqresmenə təşəkkür etmək çox vacibdir"**, – o, AzadlıqRadiosuna deyib.

Qanun layihəsinin qüvvəyə minməsi üçün onun Senatda səsvermədən keçməsi və daha sonra prezident tərəfindən imzalanması lazımdır.

## Buna da bax:


Aİ ölkələri rusiyalılara turist vizalarının verilməsini sərtləşdirmək istəyir

NATO Ukrayna dronunu vurdu – Estoniya səmasında gərginlik

Zelenski Trampdan havadan müdafiə sistemləri istəyir


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur